# AZƏRBAYCAN RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ
# Q Ə R A R

**“İcazə” blanklarının (jurnallarının) verilməsinə görə ödənilən haqqın məbləği”nin təsdiq edilməsi haqqında**

“Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 973-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin “Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2008-ci il 4 iyul tarixli 792 nömrəli, “Yol hərəkəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 23 fevral tarixli 1016-VQD nömrəli Qanununun tətbiqi və “Yol hərəkəti haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 noyabr tarixli 24 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında” 2018-ci il 17 aprel tarixli 1926 nömrəli, “Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin fəaliyyətinin təmin edilməsi və Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında” 2011-ci il 20 iyul tarixli 472 nömrəli, “Sumqayıt şəhərində avtomobil nəqliyyatı ilə sərnişin daşınması sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında” 2015-ci il 7 dekabr tarixli 704 nömrəli və “Gəncə şəhərində avtomobil nəqliyyatı ilə sərnişin daşınması sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında” 2016-cı il 25 yanvar tarixli 750 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə” 2022-ci il 8 sentyabr tarixli 1842 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan

Respublikası Prezidentinin 2023-cü il 18 avqust tarixli 2300 nömrəli Fərmanının 2.1.5-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“İcazə” blanklarının (jurnallarının) verilməsinə görə ödənilən haqqın məbləği” təsdiq edilsin (əlavə olunur).

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 13 mart 2024-cü il

№ 148

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2024-cü il 13 mart
tarixli 148 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

## "İcazə" blanklarının (jurnallarının) verilməsinə görə ödənilən haqqın məbləği

| Sıra №-si | "İcazə" blanklarının adı | Xidmət haqqı (manatla) |
|---|---|---|
| 1. | İkitərəfli yük daşımaları üçün "İcazə" blankı | 40 |
| 2. | İkitərəfli və tranzit yük daşımaları üçün "İcazə" blankı | 40 |
| 3. | Tranzit yük daşımaları üçün "İcazə" blankı | 40 |
| 4. | Üçüncü ölkəyə/ölkədən yük daşımaları üçün "İcazə" blankı | 40 |
| 5. | İkitərəfli, tranzit və üçüncü ölkəyə/ölkədən yük daşımaları üçün "İcazə" blankı | 40 |
| 6. | Beynəlxalq qeyri-müntəzəm sərnişin daşımaları üçün "İcazə" blankı | 40 |
| 7. | Beynəlxalq Nəqliyyat Forumunun çoxtərəfli illik "İcazə" blankı (jurnalları) | 500 |
| 8. | Beynəlxalq Nəqliyyat Forumunun çoxtərəfli qısamüddətli (aylıq) "İcazə" blanklı (jurnalı) | 150 |